Tahir Salahov – 95

# Həyatın sərt üzünü görən rəssamın “Sərt üslubu”



**Xalq rəssamı, professor Tahir Salahovun 95 illik yubileyi münasibətilə görkəmli sənətkarın Ev-muzeyində tədbir keçirilib.**

Azərbaycan Milli Konservatoriyası tərkibindəki İncəsənət Gimnaziyası, “Aytam” Nərimanov rayonun uşaqları mədəni maarifləndirmə birliyi və KamaləArt qalereyasının birgə təşkil etdiyi mərasimdən əvvəl iştirakçılar Xalq rəssamının xatirəsinə həsr edilmiş sərgiyə baxıblar. Onun həyat və yaradıcılığını əks etdirən video-çarx nümayiş olunub. Ardınca gimnaziyanın şagirdləri və “Aytam” birliyinin uşaqları konsert proqramı təqdim ediblər.

Tahir Salahovun hələ özünün sağlığında yaratdığı Ev-muzeyinin direktorunun dediyinə görə, bura əvvəllər rəssamın yaradıcılıq emalatxanası olub.

Ailələrində ondan başqa dörd uşaq böyüyürdü: iki qardaş, üç bacı. Sovet hökumətinin bütün varidatını əlindən aldığı atası əvəzində, onlardan iş istədi. İşlə təmin etdilər, amma 1938-ci ilin iyulunda gecə ilə “xalq düşməni” damğası ilə evdən apardılar. Ailə zülm-zillət içində qaldı.

Tahir Salahov Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, sonra isə Moskva Surikov adına Rəssamlıq İnstitutunu bitirir. Orada oxuduğu vaxt atasının bəraət almasına çalışır. Nəhayət, buna nail olur.

Gələcək rəssam hələ 3-cü kursda oxuyanda Bakıda açılan respublika təsviri sənət sərgisində “Ləpə” və “Estakada” adlı əsərlərini nümayiş etdirir. Diplom işi isə “Növbədən qayıdanlar” tablosu olur. O vaxt Moskvada çıxan “İskusstvo” jurnalı yazırdı: “Tablo çox koloritlidir”.

Sənətşünasların fikrinə görə, Tahir Salahov məhsuldar işləyən rəssam olub. Onun əsərlərində çox böyük sadəlik, səmimilik var. Bu da sənətkarın ustalığından irəli gəlir. Ən adi tamaşaçı belə, o əsərlərdən nə isə götürə bilər.

Onun rəsm əsərlərinin adlarına fikir verin: “Təmirçilər”, “Səhər qatarı”, “Rezervuar parkı”, “Pəncərə”, “Neftçi portreti”, “Quraşdırıcılar”. Hər birində sovet rejiminin sifarişi olsa da, insan amilinə üstünlük verilib. SSRİ Dövlət mükafatına layiq görülmüş Tahir Salahov portret janrında da gözəl əsərlər yaradıb. Onun “Anamın portreti”, “Aydan”, “Qara Qarayev”, “Mirzə Ələkbər Sabir”, “Fikrət Əmirov”, “Rəsul Rza” və sair əsərləri bu qəbildəndir.

Rəssam öz ailə həyatını da tabloları ilə, sanki, tərcümeyi-hal kimi yaradıb. Qızına və həyat yoldaşına həsr etdiyi “Alagöz–Şərqin əfsanəsi”, “Aydan–Şərqin uldizu”, “Varya qırmızı divanda”, “Varya qırmızı papaqda”, “Varya Pikasso paltarında” əsərləri buna misal ola bilər.

Tahir Salahov Azərbaycan Ressamlar Birliyində katib, Azərbaycan Dövlət İncəsənət Universitetində müəllim, Moskva Dövlət Universitetində kafedra müdiri, SSRİ Rəssamlar Birliyində birinci katib vəzifələrində işləyib. 1997-ci ildə Rus Rəssamlıq Akademiyasının vitse-prezidenti seçilib. Əsərləri dünyanın bir çox ölkələrində nümayiş etdirilib.

O, “Sosialist Əməyi Qəhrəmanı” adı alıb. Azərbaycan, Bolqarıstan, Polşa, Monqolustan və başqa ölkələrin orden, medal və mükafatlarına layiq görülüb. “Ölməzlər Akademiyası” adlanan Fransa Zərif Sənətlər Akademiyasına SSRİ-dən seçilən 3 nəfərdən biri Tahir Salahov olub. O, həm də Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərinin və Montana ştatının fəxri vətəndaşı olub.

Sanki, bütün bu həyat hekayəti 3 mərtəbəli Ev-muzeyinin divarlarına yazılıb. Səadət xanım bizə bələdçilik edir:

–10 il ərzində Tahir müəllimlə gəzmədiyimiz, sərgi keçirmədiyimiz ölkə qalmadı. Xalçalarını, rəsm əsərlərini özü sərgiləyirdi. Çox maraqlı şəxsiyyət idi. Biz ondan çox şey öyrəndik. Sevinirəm ki, bu gün onun bizə yadigar qoyduğu ev-muzeyini rəssamın adına layiq inkişaf etdiririk.

Dünyaca tanınmış azərbaycanlı rəssam 2 il öncə 92 yaşında vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub. Dəyəri əsərlərində, xatirəsi ürəklərdə yaşayır.

***R.QURBANLI***
***XQ***